

*Zəfərdən danışarkən, əlbəttə ki, biz xalqımızın həmrəyliyini qeyd etməliyik. Çünki Azərbaycan xalqı Ordumuzun arxasında dayandı, mənim arxamda dayandı, bizə inandı və tam əmin idi ki, biz tarixi Qələbə qazanacağıq və belə də oldu. Azərbaycan tarixi Zəfər çaldı. Bu müharibə haqqında hələ çoxlu kitablar, məqalələr yazılacaq, müharibə iştirakçıları öz xatirələrini bölüşəcəklər. Ancaq mən bütün bu işlərə rəhbərlik edən şəxs kimi, Ali Baş Komandan kimi bir daha gördüm Azərbaycan xalqı nə qədər böyük xalqdır.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# Vətən müharibəsi Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu bir daha göstərdi

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu gün artıq Hadrutun və ümumiyyətlə, Qarabağın yeni dövrünün başladığını, Hadrut əməliyyatının İkinci Qarabağ müharibəsində xüsusi əhəmiyyət daşıdığını, istər hərbi nöqteyi-nəzərdən, istərsə də strateji baxımdan önəmli olduğunu diqqətə çatdırdı: "Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir, çünki dağlıq ərazidir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi. Eyni zamanda, Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı...".***

Ölkə rəhbəri sözlərinə əlavə edərək, müharibə zamanı Ermənistan ordusunda on mindən çox fərarinin qeydə alınmasına və düşmənin bəzi yaşayış məntəqələrindən tələm-tələsik qaçaraq çıxmasına baxmayaraq, işğalçı Hadrutda müqavimət göstərdi, ona görə də burada bir neçə gün şiddətli döyüşlər getdi. Lakin o, Azərbaycan əsgəri, zabiti qarşısında öz acizliyini dərk edərək, bu ərazidə də ağır məğlubiyyətə uğradı.

Azərbaycan Prezidenti çıxışında qeyd etdiyi kimi, Ermənistan rəhbərliyi və ordusu Silahlı Qüvvələrimizin Cəbrayıldan sonra Hadrut istiqamətinə hücumunu gözləmirdi. Düşmən təhlükəni Füzuli səmtindən təxmin edirdi. Çünki Hadrutda işğalçının çox böyük canlı qüvvəsi var idi. Ümumiyyətlə, hərbi nöqteyi-nəzərdən Hadrutu düşməndən təmizləmək böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Azərbaycan Ordusu isə bu əməliyyatı keçirməklə öz gücünü Ermənistana və bütün dünyaya bir daha göstərdi.

Dövlətimizin başçısı çıxışında müharibə dövrünün informasiya mübarizəsinə də toxundu. Bildirdi ki, o zaman Hadrut əməliyyatı ilə bağlı Ermənistan mətbuatında yalan informasiyalar yayılırdı. Belə ki, ordumuz az itkilərlə qəsəbəni azad etsə də, düşmən ölkənin rəhbərliyi və Müdafiə Nazirliyi Hadrutun ermənilərin əlində olduğunu bəyan edirdi. Guya, işğalçı növbəti dəfə taktiki geriləmə edib və sonra qəsəbəyə qayıdaraq, Azərbaycan əsgərlərini bu ərazidən çıxarıb.

Prezident İlham Əliyev müraciətində bütün bunlarla bağlı dedi: "Bu yalanları müşahidə edərək, sadəcə olaraq, təəccüb edirdim. Çünki açıq-aydın idi ki, Hadrut artıq bizdədir. Mən əmr verdim Hadrutda Azərbaycan bayrağı qaldırılsın ki, ermənilərin bu yalanlarına son qoyulsun. Ancaq ondan sonra - Azərbaycan əsgər və zabitləri bizim dövlət bayrağımızı Hadrutda qaldırıb mənə raport verəndən sonra artıq Ermənistan rəsmi təbliğatı etiraf etdi ki, Hadrut Azərbaycan Ordusunun nəzarətindədir".

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında işğalçı Ermənistana qarşı informasiya mübarizəsinin önəmini hər zaman diqqətə çatdırıb, düşmənin haqqımızda daim təhrif edilən, yalan məlumatlar, uydurma faktlar yaydığını vurğulayaraq, buna adekvat cavab verilməsinin, həqiqətlərimizin dünyaya çatdırılmasının zəruriliyini xatırladıb.

Vətən müharibəsi günlərində də dövlətimizin başçısı bu məsələni diqqətdə saxlayaraq, aparıcı telekanallara və informasiya agentliklərinə ardıcıl müsahibələr verdi. Bununla bərabər, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Müdafiə Nazirliyinin gündəlik cəbhə məlumatları da informasiya müharibəsində boşluğun yaranmasının qarşısını aldı. Belə bir vəziyyət isə təbii ki, düşmənin saxta xəbərlərinin (fake news), necə deyərlər, ayaq açıb yeriməsinə imkan vermədi.

Beləliklə, Azərbaycanın informasiya cəbhəsində düşünülmüş sistemli, eyni zamanda, fakt və dəlillərə əsaslanan səmərəli fəaliyyəti Ermənistan hakimiyyətinin uzun illər bu istiqamətdə apardığı qismən uğurlu mübarizənin tam fiaskoya uğramasını şərtləndirdi. Baş nazir Nikol Paşinyan kapitulyasiya müqaviləsini imzaladığı gün isə bu ölkənin Müdafiə Nazirliyinin sözçüsü xalqı aldatdığını, bunu bilavasitə təmsil olunduğu rəsmi qurumun istəyi ilə reallaşdırdığını bildirdi və vəzifəsindən istefa verdi.

Dövlətimizin başçısı Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə də bildirdi ki, Ermənistan təbliğatı istər işğal, istər müharibə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulub: "Onların tarixi də saxtadır, keçmişi də saxtadır, dövlətçiliyi də saxtadır, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. Hadruta ermənilər İrandan XIX əsrdə köçürülüblər. Bunu hamı bilir. O vaxta qədər burada erməni yaşamırdı. Tarixi saxtalaşdıraraq, bu gün də bugünkü reallıqları saxtalaşdırırlar. Müharibə dövründə biz Ermənistan rəsmi orqanlarından nə qədər yalan eşitdik. Onların Müdafiə Nazirliyindən, - yəqin ki, onun adını gərək dəyişdirib yalan nazirliyi qoysunlar, - o qədər yalan, o qədər cəfəng informasiyalar gəlirdi ki, həm biz, həm də beynəlxalq ekspertlər, sadəcə olaraq, təəccüb edirdilər. Hadrutla bağlı bu yalanın dərəcəsi ən pik həddə çatmışdı. Çünki Hadrutun azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşatdı".

Azərbaycan Prezidenti Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Ermənistan rəhbərliyinin İkinci Qarabağ müharibəsində Hadrutun işğaldan azad edilməsi barədə yalan, saxta informasiyalar yaymasından danışarkən, bir məqama xüsusi toxundu: "Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun inzibati mərkəzi idi, rayon mərkəzi idi. Ermənistan rəhbərliyi və Ermənistan ictimaiyyəti gördü ki, bizim üçün bütün torpaqlar bizim torpaqdır - istər Füzuli olsun, istər Cəbrayıl olsun, istər Zəngilan olsun, istər Hadrut olsun, Şuşa olsun, Suqovuşan olsun. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən yaşayış qəsəbələrini işğalçılardan azad etmək Ermənistana göstərdi ki, Ermənistan torpaqlarımızdan çıxmaq haqqında öhdəlik götürməyənə qədər biz dayanmayacağıq və dayanmadıq. Ermənistan artıq kapitulyasiya aktına imza atmağa hazır olduqdan, bizə bu haqda məlumat daxil olduqdan sonra dedik ki, bəli, dayanırıq və dayandıq, qalan rayonları siyasi yollarla geri qaytardıq".

Hadrutun timsalında deyə bilərik ki, işğalçı Qarabağ və ətraf yaşayış məntəqələrimizi qəsb etməklə Azərbaycan əhalisini etnik təmizləməyə məruz qoyub, eyni zamanda, bütün şəhər və kəndlərimizi, tarixi abidələrimizi tamamilə dağıdıb, təbii sərvətlərimizi talayıb. Düşmən bununla belə göründüyü kimi, 30 il ərzində özü üçün də normal bir həyat şəraiti yaratmayıb. Eyni zamanda, işğalı sonsuza qədər davam etdirməyi qarşıya əsas məqsəd qoyub. Təəssüf ki, dünyanın nüfuzlu dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən bu qəsbkarlıq faktı susqunluqla qarşılanıb, düşmənin talan və barbarlığına göz yumulub.

Təbii ki, Ermənistanın belə vəhşiliyinin, özbaşınalığının bir sonu olmalı idi. Bu sonun əvvəli isə ötən il sentyabrın 27-də başladı: Yeni ərazi işğal etmək iddiası ilə torpaqlarımıza hücuma keçən düşmən ordumuzun sərt əks həmlə əməliyyatları ilə üzləşdi və layiqli cəzasını aldı. Azərbaycan Ordusu döyüşlərdə mərdlik və qəhrəmanlıq göstərərək, möhtəşəm zəfərə imza atdı.

Beləliklə, Hadrut və digər şəhər və qəsəbələrimizin düşməndən təmizlənməsi haqqın, ədalətin təntənəsinə çevrildi. Dövlətimizin başçısının vurğuladığı kimi, təkcə Hadrutun azad olunması tarixi hadisə idi: "Çünki bundan sonra biz artıq müxtəlif istiqamətlər üzrə Zəfər yürüşümüzü davam etdirdik. Bir istiqamət Füzuli istiqaməti idi. Hadrut azad olunandan heç 10 gün keçməmiş biz Füzulini azad etdik. Digər istiqamət Şuşa istiqaməti idi. Bax, o Zəfər yolu dediyimiz tarixi yol, o cümlədən Hadrut meşələrindən keçirdi. Beləliklə, Füzuli oktyabrın 17-də götürüləndən sonra Ermənistana daha çox zərbə oldu. Çünki artıq Cəbrayıl, Hadrut, Füzuli, yəni böyük yaşayış məntəqələri işğaldan azad edildi və müharibənin sonrakı gedişatını hər kəs bilir".

İndi işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq layihələri reallaşdırılır. Bir az əvvəl xatırlatdığımız kimi, bu ərazilərdə düşmən nəinki daş üstdə daş qoyub, eyni zamanda, mövcud evləri, infrastrukturu yerlə bir edib. Hadrutda da vəziyyət heç də ürəkaçan deyil. Ermənilər bu qəsəbədə yaşamalarına baxmayaraq, digər məskunlaşdıqları ərazilərdə olduğu kimi, bura da miskin görkəmi ilə diqqət çəkir. Dövlətimizin başçısı çıxışında bu barədə dedi: "Qəsəbədə 30 il ərzində heç nə dəyişilməyib, hərbçilər üçün iki bina tikilmişdi, bir məktəb də təmir olunmuşdu. Qalan bütün binalar necə var idi, elə də qalıb. Yəni, kütləvi səfalət hökm sürüb, bir daş daş üstünə qoyulmayıb. Görün yollar, binalar nə gündədir. Bəzi binalarda, ümumiyyətlə, insan necə yaşaya bilər, böyük sualdır...".

Azərbaycan Prezidenti həmin sualı cavablandıraraq bildirdi ki, Ermənistan dövlətinin 30 il ərzində xarici ermənilərdən aldığı milyonlarla pul, "Hayastan" fondundan, eləcə də hər il təşkil olunan marafondan əldə etdiyi təqribən yüz milyon dollardan çox vəsait işğalçı ölkənin indiki və keçmiş oğru rəhbərliyi tərəfindən mənimsənilib. Bütün bunlar isə Ermənistana ötən illər ərzində rəhbərlik edən şəxslərin işğalçı, qəsbkar olmaları ilə bərabər, həm də oğru, rüşvətxor, korrupsioner olmasını göstərir.

Dövlətimizin başçısı çıxışında Hadrutun da uğurla bərpa olunacağını, tezliklə qəsəbənin baş planının təsdiq ediləcəyini vurğulayıb və bu ərazidə artıq bərpa işlərinə start verildiyini deyib: "Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək, "Hadrut" yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Məscidin də təməlini mən qoydum və hesab edirəm ki, bu da tarixi hadisədir. Çünki sovet vaxtında Hadrut qəsəbəsində yaşayanların əksəriyyəti ermənilər idi. Onlar, əlbəttə ki, burada məscidin inşasına imkan verməzdilər və bilirik ki, bütövlükdə sovet dövründə - ateizm dövründə məscid tikmək mümkün deyildi".

Prezident İlham Əliyev çıxışının sonunda Azərbaycan rəhbərliyinin Xocavənd rayonunun, eləcə də Hadrut qəsəbəsinin gələcək inkişafı ilə bağlı çox böyük planları olduğunu və həmin planların bir qisminin icrasına start verildiyini bildirib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***